№ 13-14 (492-493) 03 - 31 iyul 2023-cü il VEDİBASAR e-mail: vedibasar2015@mail.ru 7

# Əli Rza Xələfli-70

## Yollar bələdçisi, izlər sirdaşı



**ƏLİ RZA XƏLƏFLİ**
**şair-publisist**

May ayının 19-da Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı hörmətli Kamal Həsənovun təşəbbüsü ilə çağdaş ədəbiyyatımızın görkəmli nümayəndəsi, həmyerlimiz Əzizli Əlirza Zal oğlunun 70 illik yubileyi geniş şəkildə qeyd edilmişdir. Görüşə Milli Məclisin deputatı cənab Ceyhun Məmmədov, yubilyarın qələm dostları...müasir ədəbiyyatımızın fatehləri, ziyalılar, ədəbiyyatsevərlər, rayon ictimaiyyətinin nümayəndələri dəvət olunmuşdular... sanki bir el bayramı. Bu möhtəşəm tədbirə mən də dəvət olunsam da, qəfil ortaya çıxan üzürlü səbəb yığnaqda iştirakımı əngəllədi.

YAP Cəbrayıl rayon təşkilatı və rayon Ağsaqqallar şurasının təşkilatçılığı ilə Ə.Xələflinin yubileyi münasibətilə keçirilən tədbirdə iştirakım isə şair dostumu üz-üzə, gözgözə təbrik etmək arzumu reallaşdırdı. Bu şansı mənə tanıtdığı üçün hörmətli Arif Fərzəliyevə bir daha minnətdarlığımı bildirirəm.

Tədbirin əvvəlində Ulu öndər Heydər Əliyevin və canlarını Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan Arif müəllim Əli Rza Zal oğlunun həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumatları bizimlə bölüşdü. Yubilyara xoş arzularını çatdıran natiq ona qiymətli xatirə hədiyyəsi təqdim etdi.

Cəbrayıl rayon Ağsaqqallar şurasının sədri Vaqif Məhərrəmov, Cəbrayıl RİHB-nin Bakı şəhərində yerləşən qərargahının rəhbəri Əli Kazımov, aparatın məsul işçiləri Vilayət Cabbarov, Əbil Vəliyev, YAP fəalları Mürvət Abdullayev, Abbas Abbaslı, Sahil Məmmədov çıxış edərək təbriklərə qoşuldular.

Azərbaycanın əməkdar jurnalisti Avdı Qoşqar Əlirza müəllimlə olan dostluğundan, vaxtilə Cəbrayılda keçirilən Aşıq Qurbani günlərindəki iştirakının təəssüratlarından, Cəbrayıllıların yüksək qonaqpərvərliyindən, ağızdolusu söz açdı və səbəbkara uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzuladı.

Dəyərli dostlar, yığıncaqda Əlirza müəllim haqqında söylədiyim fikirlərimi də sizinlə bölüşürəm:

- Tanınmış publisist, nasir, şair, yazıçı Əli Rza Xələflinin ədəbi kimliyini incələmək böyük cəsarətlə yanaşı, ədibin həyat və yaradıcılığı haqqında ətraflı məlumatlılıq tələb edir. Odur ki, bəndənizin belə ağır bir yükün altına çiyin verdiyi anlamına gəlməyəcəyinizə əminəm. Əli Rza Zal oğlunun yetmişinci baharını bir neçə ümumi kəlmə ilə təbrik etmək mənim qardaşoğluluq və dostluq borcumdan, ona olan xüsusi diqqətimdən doğur....Diqqət isə, onu haqq etmişin haqlı umacağıdır.

"Qızıl qələm" medalı mükafatı, "Məmməd Araz" ədəbi mükafatı, "Qılınc və qələm " yaddaş mükafatı, Beynəlxalq Rəsul Rza mükafatı, Şahmar Ələkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatı, "Qabaqcıl maarif xadimi", Prezident təqaüdçüsü, "Kredo" qəzetinin baş redaktoru...bunlar hələ ədibin təltiflərinin tam siyahısı deyil, yaddaşımda yer tutanlardı. Ə.Xələflinin geniş oxucu auditoriyasına təqdim etdiyi kitabları, əsərləri sıralamağı...böyük həcm tutacağından lüzum bilmirəm.

Ən əvvəl qeyd etməliyəm ki, Əli Rzanın bir vətəndaş kimi ictimai hissi, dövlət, cəmiyyət qarşısındakı məsuliyyəti və milli mövqeyi böyük bir örnəkdir. Təbiilik və sadəliyi onu yetkin bir şəxsiyyət kimi xarakterizə edir. Əli Rza müəllim deyir ki, - qəhrəman oğullarımızın sayəsində xalqımız tariximizin ən şərəfli dönəmini yaşayır. Biz bu günümüzün qədrini bilməliyik. Əgər içimizdə bir Vətən sevgisi varsa, onu ortaya qoymağın tam zamanıdır. Hamımız bir nəfər kimi xarici düşmənlərimizin ölkəmiz xaricində və daxilində apardığı antimilli siyasətə qarşı çıxmalı, çəkici bir zindana vurmalıyıq.

Ə.Xələfli başqalarından öyrənməyə tam açıqdır, yaradıcılığını ümumbəşəri dəyərlərə uyğunlaşdırır, insanların dünyaya baxışlarını dəyişməsinə çağırışlarda bulunur. O, artıq məlum olan obyektlərdə də yeni bir şey axtarıb, tapmağa cəhd edir. Əli Rza təkrarçılığı əsla sevmir. Fikirləri daim təzə-tər, aktual, ruh oxşayandır...sözü də özü kimi hərəkətlidir. Tanınmış şairimiz İsmayıl İmanzadə demiş - Əli Rza Xələflinin təbi tanrı sovqatıdır.

Ə.Xələflinin yaradıcılığının 30 ili köçkünlük dövrünə təsadüf edir. Təbii ki, didərginlik heç kimin ruhunu oxşamır, telinə sığal çəkmir. Amma həmin dövrün məlum mərhumiyyətləri nə qədər ağır olsa da belə, Əli Rza müəllimin yaradıcılıq alovunu söndürə bilmədi, çünki o, harda olur-olsun daim yaradıcı olmağa can atır. Odur ki, Əli Rza canındakı tükənməz hərarət, zəngin ədəbi potensial hesabına qəribçiliyin bütün sədlərini dəf edərək məhsuldar yaradıcılığını davam etdirdi. Elm və sənət aləminin görkəmli simalarının görüş yerinə çevrilən "Kredo"nu yaratması onun işgüzarlığının bariz sübutudur.

Ə.Xələfli hər məqamda bulaq suyu kimi duru olan Azərbaycan dilinin zəngin və işlək bir dil olduğunu önə çəkir. Ana dilimizin yad ünsürlərdən qorunmasını müqəddəs vəzifə kimi tövsiyə edir və hətta su polisi, vergi polisi kimi dilimizin qayğısına qalmaq üçün bir dil polisinin də yaradılmasının zəruriliyini maraqlı təklif kimi irəli sürür.

Vətən, ana torpaq, milli kimlik, milli ruh, azərbaycançılıq dəyərləri Ə.Xələfli yaradıcılığının əsas qayəsidir. Onun əsərlərində milli amallar uğrunda cəngə çağırışlar edilir. Ruhunu, inadını, inamını, kəsərli sözünü yüksək bədii ifadə qabiliyyəti ilə silaha çevirərək igid oğullarımıza xitabən:

Vecə gəlməz dağlarcan səhvin, günahın olsa;

*Qovuşarsan ruhuna Vətən allahın olsa, İnadına güc gəlməz, inam silahın olsa, Zaman olsa Çin səddi yar, üzü Qarabağa* - deyib, hayqıran şair, sanki əsgərlərimizlə eyni sırada düşmən üzərinə yeriyir, onları qisasa, qələbəyə kökləyir.

Müqəddəs əmanət kimi sadiq qaldığı bal kimi şirin Cəbrayıl ləhcəsi ədibin əsl sehr çubuğudur. Ustad bu sehri ilə ata yurdumuzdan söz açanda insan sanki tərkidünya olur, ovsunlanır. Əli Rza müəllim bir içimlik suyu, bir ovuc torpağı, bir çinar kölgəsini, bir qış şaxtasını, bir udum yaz havasını, görkəmli ziyalımız Musa Aslanxanlının təbirincə desəm - bir qara ocaq daşını belə vətənin bir hissəsi hesab edərək onlardan dünənin, bu günün sorağını alır. Tarixə sirdaş Xudafərini, Diri dağı, Ziyaratı, Gordu babanı, Gəyan düzünü şairanə təsvir edib, oxşadıqca elə düşünürsən ki, bütün dünyaya məhz Cəbrayıldan nur saçılır və o nur əsil təbiət möcüzəsi olan Əlirza Zal oğlu kimi nur daşıyıcılarımızın iç dünyalarından bərq vurur.

Cəbrayıl...qəlbimin odu, atəşi,
Gözümdə həsrətin Vətən daşısan.
Bəd gəldi zamanın işi, gərdişi,
Yaddaşın göyərən, bitən daşısan.

Az qalmışdı yadımdan çıxa....Əli Rza müəllim həm də fenomen yaddaş sahibidir. O, dərin hafizəsinə həkk etdiyi tutarlı bilgilərə söykənərək çox dəyərli tarixi, ədəbi nümunələr yaratmaqla özü-özünü aydın şəkildə şərh edir və deyərdim ki, özünə monolit əbədi-ədəbi heykəl ucaldır.

Yaradanın ən ali varlığı olan insanlar belə bəzən dahi şəxsiyyətləri, düha sahiblərini, sərkərdələri didibparçalamağa, asıb-kəsməyə müntəzir olurlar. Lakin sivilizasiya sübut edir ki, tarix dəyər və dəyərliləri öz dərin gizlinində qoruyub, gələcək nəsillərə ərmağan edir. Deməli, tarix öz yaradıcısına xəyanət etmir, ...əksinə. İnanıram ki, illər, əsrlər ötsə də Əli Rzanın fəlsəfi fikir dünyasından yoğrulan əsərləri öz mənə qüdrətini qoruyub saxlayacaqdır.



Ünlü Ramiz Rövşən buyurur ki, „heç bir şair yazmaq istədiyini yaza bilmir". Əminəm ki, Əli Rza Zal oğlu hələ yazılmamış yazmaq istədiklərini köhnə-yeni Cəbrayılımızda ərsəyə gətirəcəkdir...Arazda tələsə axışan suların zümzüməsindən, yurd səmasında sayrışan ulduzların nurundan, Gəyan düzündən əsən yellərin mehindən ruh alaraq.

30 il həsrətindən ürəyinin didimdidim olduğu ata yurduna, Ulu Xudafərinə, dünya incisi Şuşaya etdiyi ziyarətlərin ağ-qara təssüratları ilə ömrünün yeddinci on illiyinə qovuşan ustad Əli Rza Xələfliyə ömrünün qalan hissəsini doğma ocağında yaşamağı arzulayıram.

Qocalığın gəncliyinə doğru açılan qədəmləriniz mübarək olsun...yollar bələdçisi, izlər sirdaşı.

*Böyük ehtiramla:*

***Bəxtiyar ƏSƏDOV***